# Musiqinin sosiologiyasında ideologiya məsələsinə dair

Güllü İsmayılova,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
E-mail: *gullu.ismailova@mail.ru*

"Sosiologiya" istilahının özü latınca "sosietas" (cəmiyyət) və yunanca "λογοζ" (söz, təlim) sözlərindən əmələ gəlmiş və hərfən cəmiyyət haqqında təlim deməkdir. Musiqinin sosiologiyası isə musiqi və cəmiyyətin qarşılıqlı əlaqəsi və onun konkret formalarının cəmiyyətə təsirindən bəhs edən elmdir. Yəni sərbəst elm sahəsi olan musiqinin sosiologiyası, musiqi mədəniyyətini və onun tarixi tiplərininin inkişafını, musiqi formalarını, cəmiyyət həyatı ilə bağlı olan musiqi fəaliyyətinin müxtəlif növlərini, müxtəlif sosial şərtlərdə musiqi rabitəsinin əsaslarını, cəmiyyətin müxtəlif sosial qruplarının tələbatının və maraqlarının formalaşmasını və s.-ni öyrənir. Musiqişünaslığın, sosiologiyanın, psixologiyanın və estetikanın qovuşuğunda yaranan və fənlərarası elm sayılan musiqi sosiologiyasında musiqiyə sosial şərtlərdən yanaşma tələb olunur. Belə ki, onun məzmununda və formasında cəmiyyət həyatının hansısa şəkildə bəstəkar dünyagörüşündə və yaradıcılığında əksi də bura daxil edilən vacib məsələlərdəndir. Musiqinin sosiologiyası problemlərini tədqiq edən A.V.Lunaçarski qeyd edir ki, tarixə sosioloji prizmadan yanaşılmalıdır və məhz bu mürəkkəb kəsişmə nöqtəsindən edilən təhlil həmin bəstəkarın və onun verilən əsərinin əhəmiyyətini, musiqinin ümumi inkişafındakı yerini tam başa düşməyə açar ola bilər. Belə ki, bu fənnin predmetini münasibətlər, yəni insanların bir-biri, onların həyat fəaliyyəti, şərait amilləri, cəmiyyətdəki mövqe və rolları ilə şərtləndirilmiş sosial münasibətləri təşkil edir. Musiqinin sosiologiyası nöqteyi-nəzərindən elmi maraq yaradan məsələlərə insanlarda bədii-musiqi zövqün formalaşması mexanizminin aşkara çıxarılması, bu və ya digər musiqi məhsulunun cəmiyyətdəki tələbatının səbəblərinin müəyyənləşməsi, sosial proseslərin musiqinin təsiri ilə bağlılığı və dinləyici auditoriyasının təsnifatı məsələsi və sairə aiddir. Musiqinin sosiologiyasında ayrılan üç istiqamətdən biri – nəzəri istiqamət cəmiyyət və musiqinin ümumi qarşılıqlı təsir qanunauyğunluqlarını öyrənir, tarixi istiqamət cəmiyyətin musiqi həyatının tarixi faktlarını araşdırır və ümumiləşdirilmiş şəkildə təqdim edir, empirik musiqi sosiologiyası isə musiqinin müasir cəmiyyətdəki rolunu araşdırır. Yəni musiqinin sosiologiyası musiqi həyatının təşkili və idarəçiliyi üçün elmi əsas yaratdığından aktual sfera hesab olunur.

Hər bir sosial sistemin idarə olunması və inkişafından ötrü ortada konkret ideyanın mövcudluğu zəruridir. Milli ideya cəmiyyətin inkişafının ümumi məqsədi və strategiyasıdır. Milli ideologiya konsepsiyasına görə, hər bir xalqın milli azadlıq hissi, müstəqillik meyli onun özünüdərk prosesində formalaşır. Tarixdən məlum olduğu kimi, istənilən sosial sistemin güclənməsində ideya həlledici rol oynayır və insanlar milli ideya ətrafında birləşdikcə onların daxili potensialı daha çox hərəkətə gəlir. T.Adorno yazır ki, musiqinin ideoloji funksiyası cəmiyyətdəki problemlərdən ayrılmazdır. Mədəniyyət dedikdə təbiət tərəfindən verilməyən, yalnız insan fəaliyyətinin məhsulu başa düşülür. Yəni mədəniyyət – yer üzünə gəlmiş hər bir fərdin müsbət keyfiyyətlərə nə dərəcədə yiyələnməsini, şəxsiyyət kimi hansı şəkildə formalaşmasını xarakterizə edir. Mədəniyyət müəyyən qədər də dövlətin əlində kütləyə obrazlı ideoloji təsir vasitəsidir, çünki kütlə psixologiyası mədəniyyəti asanlıqla qəbul edir, yəni burada obrazlı (emosional) inandırma həlledici rol oynayır. Lakin çox təəssüflə vurğulamaq lazımdır ki, ötən əsrin əvvəllərindən başlayaraq mədəniyyət sistemindən, eləcə də XX əsrin əvvəllərində Azərbaycanda formalaşan bəstəkar yaradıcılığından siyasətçilərin sui-bəhrələnmə halları danılmaz idi; məsələn, keçmiş SSRİ-də bütün mədəniyyət sistemi məqsədyönlü şəkildə sovet ideologiyasının beyinlərə yeridilməsindən ötrü bir vasitə kimi istifadə olunurdu. Yəni güclü sovet əli mədəni meyilləri, o cümlədən ədəbiyyatı, təsviri incəsənəti və musiqini öz nəzarəti altında saxlamağı bacarırdı. Belə ki, sosializm realizmi metodu bəstəkarların, yazıçıların və rəssamların yaradıcılığını sərt çərçivəyə salırdı. Ciddi senzura tətbiq olunduğundan onların baxışları, yaradıcılıq addımları mütləq şəkildə kommunist partiyasının fəaliyyətini bölüşmək, onunla həmfikirlilik məcburiyyətində idi. Bu da danılmaz faktdır ki, 70 illik sovetlər birliyi dövründə güclü azərbaycançılıq hissinə malik bəstəkarlar da digər yaradıcı insanlar kimi milləti ağrıdan mövzuları (torpaqların itirilməsi, azərbaycançılıq, dini mənsubiyyətin sıxışdırılması və s.) öz əsərlərində qabartmaq imkanından məhrum olaraq yaradıcılıqlarında əsasən marksizm-leninizm ideologiyasına istinadlı əsərlərə üstünlük vermək məcburiyyətində qalırdılar.

Amma unudulmamalıdır ki, Azərbaycanda milli müstəqillik hərəkatı başladığı dövrdən etibarən insanlarda, eləcə də yaradıcı şəxsiyyətlərdə milli özünüdərk amili özünü qabarıq təzahür etdirməyə, onların yaradıcılığında vətənpərvərlik əhvali-ruhiyyəsi geniş şəkildə təcəssüm olunmağa başladı. Yəni azərbaycanlıların XX əsrin 80-ci illərinin sonundan etibarən milli zəmində yaşadıqları məlum hadisələr, haqq səslərinin yuxarıya çatmaması və yaxud saymazlıqla qarşılanması məhz xalqın kütləvi şəkildə qəzəbinə tuş

gəlməsi ilə yanaşı, həm də 70 illik idarəçilik sisteminin çürüklüyünü anlamalarına rəvac vermiş oldu. Millətin 90-cı illərdə yaşadığı iki soyqırımı hadisəsi – qanlı 20 Yanvar və Xocalı faciələri isə heç bir ideoloji təsir və direktiv olmadan belə, bütün sənət adamları ilə yanaşı, bəstəkarların da yaradıcılığında geniş əks-səda doğura bildi. Çünki yaradıcı insanların hər biri bu cəmiyyətin nümayəndəsi idi və faciəvi yaşantıları musiqi dilində xalqa çatdırmağa ehtiyac duyduqlarından məhz daxildən gələn haqq səsi onların analoji mövzu və formalara müraciəti ilə nəticələndi. İnsaniyyətin məhvinə yönələn qanlı hadisələrdən müəyyən zaman kəsiyi ötsə də, silinməyən yaddaş bu gün də bəstəkarları həmin mövzularda yazıb-yaratmağa sövq edir. Çünki 20 Yanvar və Xocalı faciələri təkcə Azərbaycanın deyil, bəşər tarixinin ən qanlı səhifələrindən biri, insanlığa qarşı həyata keçirilən qeyri-insani aksiyalardır. A.Rzayevin "Bakı–90", C.Hacıyevin 6 saylı və A.Dadaşovun 9 saylı "20 Yanvar" simfoniyaları, N.Quliyevin "İlham və Fərizə" operası, A.Ə.Kərimoğlunun orkestr üçün "Qətl günü", S.İbrahimovanın "Vətən şəhidləri", R.Mustafayevin "Bu qan yerdə qalan deyil" kantataları, A.Mirzəyevin orqan üçün "Yanvar mərsiyələri", M.Cəfərovun qarışıq xor və piano üçün "Şəhidlər", R.Mirişlinin "Vətən harayı", İ.Abdullayevin "20 Yanvar", M.Əhmədovanın "Ata millət, ana millət, ağlama" və s. lirik mahnıları da məhz bu ağrılı-acılı mövzunun Azərbaycan bəstəkarları tərəfindən musiqidə təcəssümüdür. Bəstəkarlardan N.Məmmədovun Xocalı hadisələrinə həsr etdiyi VII simfoniyası, M.Quliyevin Xocalı qurbanlarının xatirəsinə yazdığı "Simfoniya-rekviyem"i, O.Rəcəbovun "Xocalı avazları" oratoriyası, Z.Azadın Xocalı soyqırımının 20-ci ilinə ithaflı "Xocalı yol gözləyir" rekviyemi, E.Dadaşovanın orqan üçün "Xocalı laylası" əsəri, R.Qədimovanın xor və simfonik orkestr üçün "Sarı gəlin" balladası, Y.Mirişlinin "Xocalı–613" simfonik poeması və s. əsərlər Azərbaycan bəstəkarlarının məhz Qarabağ salnaməsinin qara təqvimi olan Xocalı faciəsindən təsirlənərək yazdıqları kompozisiyalardır; məsələn, Azərbaycan bəstəkarlarının mövzuya ilk müraciəti 1990-cı ildə 20 Yanvar şəhidlərinə həsr edilən və operativ şəkildə (yəni şəhidlərin qırxınadək) yazılan əsər, bəstəkar Mobil Babayevin Nüsrət Kəsəmənlinin sözlərinə solistlər, qiraətçi, xor və orkestr üçün "Ağlama, torpağım, ağlama" adlı 3 hissəli kantatası oldu. Belə ki, ozamankı siyasi səbatsızlığı göstərən, şəhidlərin qanı ilə yuyulan torpağımızı vəsf edən, yaşadığımız faciəni musiqi dili ilə kamil şəkildə canlandıran kompozisiyada ağrı-acılarımız öz əksini taparaq ifa olundu. 1990-cı ildə bəstəkarın dirijorluğu ilə bu əsəri ifaçılar – Ə.Qədirov (qiraət), F.Kərimova, A.Qasımov və R.Sədirxanov, Xor Cəmiyyətinin xoru, Azərbaycan televiziyası və radiosunun estrada-simfonik orkestri təqdim etdi. Bəstəkarın videodiskinə daxil olan bu əsəri, o zaman qəddar sovet ordusunun törətdiyi cinayətlərin izlərini müəlliflərin özü tərəfindən kamera vasitəsilə çəkilən kadrlar müşayiət edir. Lakin televiziyanın qızıl fondunda saxlanılan kantata, təəssüf ki, gənclərin şüuruna, təfəkkür tərzinə nə qədər müsbət təsir edəcəyi nəzərə alınmadan bu illər ərzində hətta 20 Yanvarın ildönümü günlərində belə səsləndirilmədi. İlk dəfə 2014-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqında 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş anım tədbirində "Tariximizin faciəvi səhifələrinə həsr olunmuş musiqi əsərləri" mövzusunda məruzə edərkən mənim təşəbbüsümlə əsərin videoyazısı səsləndirildi. 2016-cı il 29 yanvar tarixində Azərbaycan Dövlət Filarmoniyasında keçirilən bəstəkar Mobil Babayevin 70 illk yubileyində isə yeni redaksiyada, artıq fərqli ifaçılar – Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Azərbaycanın xalq artisti S.Cəfərov, əməkdar artist F.Qasımova, əməkdar artist A.Şükürov tərəfindən böyük emosionallıqla ifa olundu.



Vətən ərazisinin, xüsusilə də itirdiyimiz torpaqlarımızın hər qarışı özünü azərbaycanlı hesab edən insanlar üçün sonsuz dəyərə, qiymətə malikdir. Yəni istər döyüş meydanında düşmənlə üz-üzə dayanan qəhrəman və fədakar hərbçilərimiz, istərsə də ideoloji cəbhədə azərbaycançılığı, vətənpərvərliyi öz əsərlərində təcəssüm etdirən yaradıcı professional bəstəkarlar nəsli çoxşaxəli yaradıcılıqlarında bu mövzuya yeni töhfələrini verməkdədirlər. Ümummilli

liderimiz H.Əliyevin israrla vurğuladığı və bu gün müxtəlif sferalarda çalışan əksər alimlərin tədqiqat obyekti olan azərbaycançılıq ideologiyası zəminində bəstəkarların yazdıqları əsərlərin geniş təbliğinə böyük ehtiyac var. Günahsız qanları müqəddəs torpağımızın üzərinə tökülən şəhidləri unutmağa, yaddaşları ölməyə qoymayan, yaşananları daim xatırlatmaq iqtidarında olan M.Babayevin vokal-simfonik əsəri kimi kompozisiyaların ifasının zalda tamaşaçılarda doğurduğu rezonans məhz belə səpkili əsərlərin yalnız Filarmoniya səhnəsində deyil, daha geniş arenada səsləndirilməsi ehtiyacından xəbər verir. Yəni dəfələrlə efirə verilən, millətin, gənclərin şüurunu, mədəni zövqünü korlayan musiqilərin və əksər televiziyalarda geniş yer alan şou-proqramların əvəzinə, heç olmasa, bir faiz belə akademik səpkili musiqi nümunələrinin də proqramlara daxil edilməsi, təbii ki, lazımlı təbliğat nümunəsi ola bilərdi.

Azərbaycanla Ermənistan arasında atəşkəs müqaviləsinə baxmayaraq, demək olar, hər gün mövqelərimizin atəşə tutulması və cəbhədən gələn acı xəbərlər də bir vətəndaş kimi bəstəkarların yaradıcılığına təsir göstərir. Elə bunun nəticəsidir ki, Qarabağa, şəhidlərə həsr olunan müxtəlif janrlarda əsərlər yazılır. Yəni müasir dövrdə Qarabağ mövzusu Azərbaycan musiqi tarixinin mühüm hissəsini təşkil edir desək, yanılmarıq. Qarabağ müharibəsi mövzusunda C.Hacıyevin 7 saylı "Şəhidlər" simfoniyası, T.Bakıxanovun 7 saylı "Qarabağ harayı" simfoniyası, V.Adıgözəlovun "Natəvan" operası, "Qarabağ şikəstəsi" və "Qəm karvanı" oratoriyaları, F.Əlizadənin "Qarabağnamə" ("İntizar") operası, O.Kazıminin, R.Mirişlinin "Şəhidlər" adlı simfoniyaları, O.Kazımının xalq çalğı alətləri orkestri üçün "Qarabağ lövhələri" süitası, O.Rəcəbovun Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevə həsr olunmuş "Çingiz" oratoriyası, H.Xanməmmədovun xalq çalğı alətləri üçün "Əlimdə sazım ağlar" poeması, S.İbrahimovanın tar və orkestr üçün "Qarabağnamə" adlı konserti, tar və simli orkestr üçün yazılmış "Sənin üçün darıxıram, Şuşam", C.Abbasovun "Səni yenidən görə bilsəydim" adlı 4 saylı simfoniyası, M.Cəfərovun qarışıq xor və piano üçün "Şəhidlər" poeması, V.Allahverdiyevin solo tar üçün "Qarabağ balladası" və bu kimi kompozisiyalar əsl vətəndaş mövqeyindən yazılan əsərlərdir. Yəni əsərin tələb olunması onun əhəmiyyəti baxımından mühüm faktor hesab olunur. İnsanların faciəsindən yaranan gərgin və zəngin emosional psixoloji vəziyyəti musiqi dili vasitəsilə ifadə etmək heç də asan deyil və təbii ki, bu da yaradıcı şəxsiyyət hesab olunan bəstəkarların təfəkküründən qaynaqlanır. T.Əkbərin "Hər birimiz Mübarizik, Fəridik" ballada-poeması, R.Mirişlinin "Əsgər andı", "Haydi, igid ərlər, irəli", C.Quliyevin "Əsgər marşı" və s. mahnı-marşlar isə yüksək əhvali-ruhiyyənin təcəssümü kimi dinləyicidə optimist ovqat yaradaraq xalqı mübarizəyə səsləyir. Ötən ilin aprel ayında torpaqlarımızın geri qaytarılması uğrunda Azərbaycan ordusunun cəbhə bölgəsində göstərdiyi şücaət, igid oğullarımızın rəşadəti sayəsində yüksək döyüş əhvali-ruhiyyəsi hər birimizin qəlbində qürur, fərəh hissləri doğurdu. Gənc nəsillərin məhz belə vətənpərvər, əzmkar ruha sahiblənmələrində haqqında söhbət açılan əsərlər böyük əhəmiyyət daşıyır.❖

**Ədəbiyyat**


1. Адорно Теодор В. Избранное: Социология музыки Университетская книга Москва – Санкт-Петербург, 1999, с.136.
2. Асафьев Б.В. Музыкальная форма как процесс. Книги первая и вторая / Ред. вступ. ст. и комм. Е.М.Орловой. П., 1971.
3. Вебер М. Рациональные и социологические основания музыки // Избранное. Образ общества. М., 1994 4. А.В.Луначарский. "Вопросы социологии музыки", М,1971
4. Набок И.Л. Проблемы социальной природы музыкального творчества в теоретическом наследии Б.Л.Яворского // Музыка в социалистическом обществе: Сб. ст. Сост. и общ. ред. А. А. Фарбштейн. Л., 1977. Вып. 3.
5. Проблемы музыкального мышления. Сб. ст. Сост. и ред М. Г. Арановский. М., 1974.
6. Сорокин П.А.Человек. Цивилизация. Общество. М., 1992.
7. Сохор А.Н.Социология и музыкальная культура. М., 1975.



**Резюме**

В статье Гюллю Исмайловой «О проблеме идеологии в музыкальной социологии» рассказывается об одном из разделов социологии искусства науки музыкальной социологии. А так же, существующие в прошлом и настоящем проблемы идеологии в произведениях Азербайджанских композиторов исследуются в контексте музыкальной социологии.



**Ключевые слова:** социология музыки, национальная идеология, самопознание, вокальная симфоническая композиция, художественно-музыкальный вкус, идеология Азербайджанства и т.д.



**Summary**

The succeeding article by Gullu Ismailova "On the problem of ideology in music sociology" told about one of the sections of the sociology of art music science of sociology. As well as, existing in the past and the present problems of ideology in the works of Azerbaijani composers studied in the context of musical sociology.



**Key words**: sociology of music, national ideology, self-knowledge, vocal symphonic composition, artistic and musical taste, ideology of Azerbaijanism and so on.